# Ailə müəsissəsinin müasir vəziyyəti və gənclərin bu haqda fikirləri

**Nigar Muradova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** namazovanigar@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. Ü.A.Əfəndiyeva
psixol.ü.f.d. S.N.Heydərova

**Açar sözlər:** ailə-nikah münasibətləri, nigah, gənclərin ailə haqqında düşüncələri, gənclərin ailə quracağı insanı seçməsi və bu haqqda kriteriyaları

**Ключевые слова:** отношения между семьей и браком, брак, мысли о семье молодых людей, выбор молодого человека для создания семьи

**Key words:** family-marriage relationships, marriages, young people's thoughts on the family, young people's choice of family and their criteria

Cəmiyyətin təməli, dirəyi ailədir. Ailə müəsisəsi hər zaman həm ayrı-ayrı fərdlərin həmdə ümumi cəmiyyətin daima diqqət ərkəzində olan qurumudur. Bu müəssisənin sağlam təməllər əsasında qurulması onu təşkil edən fərdlərin həm həyati həm də ruhi sağlamlığına müsbət və ya mənfi təsir edər. Xüsusilə də sağlam təməllər əsasında qurulmuş ailə birbaşa uşaqların inkişafına təsir edir. Normal münasibətin hökm sürmədiyi ailələrdə böyüyən uşaqların daxili aləmlərində, davranışlarında hətta duyğularında belə problemlər yarana bilər. Belə ailələrdə böyüyən uşaqlarda özünəqapanıqlıq, özünə inamsızlıq, başqaları ilə normal ünsiyyətə girə bilməmək, böyüdükcə zorakılığa, qəddarlığa meyl etmək (başqalarına və özünə qarşı), aqressivlik kimi hallar qeydə alınır. Belə uşaqlarda davranış pozuntuları və depressiya hallara sıx-sıx rast gəlinir. Bütün bunların əksinə qeyd edə bilərik ki, özünü yaxşı ifadə edə bilən, sosiallaşmada, insanlarla ünsiyyətə girməkdə problem yaşamayan insanların ailələrinə nəzər salsaq bu uşaqların normal ailə çərçivəsində böyüdüyünü müşahidə edərik.

Ana-atalar arasında müsbət dialoqlar xüsusilə uşaqların davranışına, hiss və düşüncələrinə təsir edir. Uşaqlar ata analarından gördüklərini yığırvə onları şüur altlarına atır və çox böyük ehtimal ki gələcəkdə insanlarla olan münasibətlərində onları aşkara çıxaracaqdır.

İnsan övladı dünyaya gəldiyi gündən yaradılışı gərəyi cəmiyyət daxilində toplu halda yaşamağa meyilli olmuşdur. Ailə, cəmiyyət daxilində olan topluluq içində ən kiçik olanlardandır.

Uşaq ailədə həyat qaynağıdır, uşaqsız ailənin heç bir mənası yoxdur. Uşaq doğulduğu andan ailə və cəmiyyətin bir parçası olur. Hər bir uşaq doğulduğu gündən özünə xas xarakterik xüsusiyyətlərlə dünyaya gəlir və öz şəxsiyyətini məhz ailəsinin daxilində formalaşdırır. Ailə uşağın ilk sosiallaşdığı yer olduğundan onun inkişafında birinci dərəcəli önəmli yer tutur. Uşaq sevgini, nifrəti, ayrı-seçkiliyi, diqqəti, qayğını ailədə görərək öyrənir. Ata ananın sevgi ilə, qayğı ilə uşağına münasibət bəsləməsi onlar arasına güclü bağlar yaradır. Bütün bunlar yeniyetməlik dövrünə sıra ilə də gənclik dövrünə öz təsirini verir. Yeniyetməlik dövrü onun üçün elə dövrdür ki, o artıq uşaq deyil, amma böyük olaraq da qəbul edilmir, emosional baxımdan xeyli qarışıq bir dövrdür.

Təbii ki, biz ailədən, uşaqdan, uşağın ailədəki tərbiyəsindən danışmadan öncə, yəni, hələ bu səviyyələrə gəlmədən gənclərin ailə qurmaq haqqında düşüncələrindən danışmalıyıq. Hal-

hazırda "ailə müəSsisəsi" dəyişən sosial vəziyyətlərlə əlaqəli olaraq çətinliklər içindədir və ən dərin böhranlardan birini yaşayır. Ölkənin keyfiyyətcə yeni iqtisadi və siyasi münasibətlər şəraitinə keçməsi gənclərin həyat yoldaşını seçməsi və ümumilikdə nikah münasibətinə dair fikirlərinə də əsaslı şəkildə təsir etdi.

Evlənmə və ailə münasibətləri böhranının bir çox mənfi tərəfləri arasında tədqiqatçıların qeyd etdikləri aşağıdakı nüansları nəzərdən keçirək: ailənin mənəvi səviyyədə yoxsulluğu, ailə tərbiyəsinin keyfiyyətinin azalması; natamam ailələrin, tək yaşayıb uşaq böyüdən kişilərin və qadınların sayının artması, ailə qurumunun dəyərinin bərqərar olması və s. Bütün bunlar cəmiyyətin inkişafının, qloballaşmanın və ölkəmizin yeni iqtisadi, siyasi və sosial səviyyələrə keçidinin nəticəsidir.

Ailə münasibətlərinin yaradılması və gələcək nikah tərəfdaşı haqqında fikrin formalaşması tarixən daima ən aktual cəmiyyət mövzularından olmuşdur. Biz tədqiqat obyektini sosioloji deyil, psixoloji baxımdan daha keyfiyyətli və ətraflı təhlil etmək üçün də nəzərdən keçirəcəyik.

Ailə evlilikdən daha mürəkkəb sosial bir fenomendir, buna görə obyektiv araşdırma aparmaq və qəti nəticəyə gəlmək çətindir. Hətta Amerikalı sosioloq Goode, müasir cəmiyyətin obyektiv araşdırmaq üçün ailə haqqında çox şey bildiyini qeyd etmişdir.

Ailə-nikah münasibətlərinin formalaşması və inkişaf tarixilik baxımından həmdə sosial baxımdan istənilən dövrdə maraqlı və vacib mövzulardan biri olmuşdur. Evlənərkən tərəf müqabilinin seçimi ilə bağlı olduğu üçün həmdə bu seçim birbaşa nəticə kimi xarakterizə edilir.

Müxtəlif xalqlar nikah və ailə tərkibi haqqında müxtəlif fikirlərə sahibdirlər. Evlilik və ailə, bildiyimiz kimi, dərhal meydana gəlməmişdir. Əvvəlcə, bir kişi və bir qadın arasında əlaqələr eyni əsasda əsasən (yalnız bioloji ehtiyaclarını, tənzimləyərək) ilk cinsi münasibətlər əsasında yaranmışdır. Və evlilik bu üzvlərin arasında evlilik əvvəli cinsi münasibətlərin mövcudluğunu nəzərdə tuturdu. Münasibətlər birbaşa cəmiyyətin və dövlətin inkişaf səviyyəsindən asılıdır.

Bütün bu göstərici və səbəblərdən başqa bəzən biz ailə quracağımız insanı özümüz seçdiyimizi düşündüyümüz halda o şəxsi bizə cəmiyyət özü seçir. Bizim sosial mühitimiz, bir qayda olaraq, ünsiyyət qurduğumuz şəxslərlə məhdudlanır, bizi böyüdən və ya həyatımızda bu və ya digər şəkildə olan, özünə yer tutan hər kəs həyatımızın bir hissəsini təşkil edir onu təşkil edən insan qrupu da heç de sırf öz istədiyimiz insanlardan təşkil olunmayıb. Amma həmin insanlar (arzu etdiyimiz və ya etmədiyimiz) bizə təsir edir və bizdə olan şəxsiyyəti formalaşdırır.

**Məqalənin aktuallığı.** İnsan şəxsiyyətinin formalaşmasında cəmiyyət və onu təşkil edən insanların rolu danılmaq biz faktdır. Cəmiyyət geniş anlamda bütün insanların cəmləşdiyi məkan kimi anlaşılır, ailə isə cəmiyyətin əsas özəyini təşkil edən bir müəssisə kimi məhz insan şəxsiyyətinin formalaşmasında əsas rolu oynayır. Cəmiyyətə normal ailə təqdim etmək üçün təbii ki, o ailənin təməlini, bünövrəsini möhkəm qurmaq lazımdır. Bu baxımdan ailə müəssisəsinin müasir vəziyyətinin tədqiqi məqalənin aktual əhəmiyyətini göstərir.

**Məqalənin elmi yenilyi.** Elmi yenilik ondan ibarətdir ki, ailə müəsisəsinin və onun daxilində baş verən problemlərin cəmiyyət üçün vacib problem olduğu nəzərə alınaraq gənclərin maariflənməsi məqsədilə məqalədə müxtəlif xalqların ailə təcrübəsinə, xarici ölkə alimlərinin fikirlərinə istinad olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də psixoloqlar istifadə edə bilərlər

## Ədəbiyyat

1. Qurbanova L. M. Ailənin psixoloji problemləri və həlli yolları. Bakı: Bilik, 2012.
2. Фрейд З. Ввейедение в психоанализ: Лекции. М.: Наука, 1989.
3. Çələbiyev N.Z. Ailə psixologiyası. Bakı: Mütərcim, 2015.
4. Əlizadə Ə.Ə. Qadın psixologiyası. Bakı: Təhsil, 2015.
5. https://en.wikipedia.org/wiki/Gender
6. http://www.who.int/gender-equity-rights/unerstanding/gender-definition/en/

**Н. Мурадова**

## Семейная, семья и молодежные семьи

## Резюме

В статье, которую я собирался преследовать, я иногда ссылаюсь на гениев Моргана, Энгельса, М.Ковалевского, Добра, Фрейда и других психологов, основанных на класссических теориях, и извлекал выгоду из их ценных идей и суждений, и я хотел бы сделать вывод, что семейные и семейные проблемы, трудности в решении проблем и устранении неполадок и даже самая насущная проблема. Главная роль в этих вопросах - это концепция молодежи и их семей. Взрослым (членам семьи, родителям, родителям, учителям, преподавателям) необходимо обучать молодых людей психологическим проблемам с низким и возрастным уровнем, которые могут возникать и возникать.

**N. Muradova**

## Family mentality and youth families

## Summary

In an article I was aiming to pursue, I sometimes refer to the geniuses of Morgan, Engels, M. Kovalevsky, Good, Freud, and other psychological scientists based on classical theories and benefited from their valuable ideas and judgments, and I would like to conclude that family and family problems, difficulties in managing and troubleshooting problems and even the most pressing problem. The main role in these issues is the conception of young people and their families. Adults (family members, parents, parents, teachers, educators) need to educate young people from low to age-old psychological challenges to the problems that may arise and arise.

**Redaksiyaya daxil olub:** 12.01.2017